# ƏDƏBİ-BƏDİİ JURNALLARIMIZ VƏ AZƏRBAYCAN REALLIQLARI

A.Q.ƏZİMOVA

Ədəbi-bədii jurnallar ictimai mühitdə çox böyük önəm kəsb edən mətbuat orqanlarıdır. Bu jurnalların təkcə ədəbi-ictimai fikirdə deyil, habelə siyasi, iqtisadi, sosial sahələri əhatə edən zümrələr arasında da ciddi əhəmiyyət kəsb etdiyi tarixdən bizə məlumdur. Jurnalın ictimai mühitdə rolunun böyük olduğunu öz təcrübəsində, publisist fəaliyyətində hiss edən məşhur jurnalistlər xüsusilə ədəbi-bədii orqanların xalq arasında populyarlığını yüksək qiymətləndirmişlər. Rus jurnalistikası tarixində və ümumiyyətlə, rus ədəbi-bədii jurnallar tarixində güclü publisist-tənqidçi şəxsiyyət kimi tanıdığımız V.Q.Belinski uzun müddət əməkdaşlıq etdiyi «Отечественные записки» jurnalını nəzərdə tutaraq deyirdi: «Jurnal bizim cəmiyyətdə hər şeydir. O, kafedraya bərabərdi. Jurnalda öləcəyəm və vəsiyyət edəcəyəm ki, mən öləndə «Отечественные записки» jurnalını tabutda yastıq əvəzinə başımın altına qoysunlar»[1].

Rus jurnalistikası tarixinin görkəmli tədqiqatçısı B.İ.Yesin qeyd edir ki, «ədəbi-bədii jurnallar rus ictimai fikir tarixində çox mühüm rol oynamışlar».[2] Müasir rus filoloji elminin, rus bədii fikrinin böyük tədqiqatçısı, puşkinşünas akademik Dmitri Lixaçov qeyd edir ki, Qərb ölkələrindən fərqli olaraq Rusiyada ədəbi-bədii jurnalların özünəməxsus xidmətləri olmuşdur.[3] Tədqiqatçı bu fikri ilə, əslində, həmişə senzura altında inləyən rus mətbuatının, onun heç olmasa, jurnal qolunun bədii, publisistik yazılarının nisbətən senzura təqiblərindən qaça bilməsini nəzərdə tuturdu. Həqiqətən də, Qərb təcrübəsində jurnal nəşrlərinin daha çox illüstrativ variantları üstünlük təşkil edirsə, Rusiyada onun ədəbi-bədii qolu populyar olmuşdur. Bu məqam bizim tədqiqatımız üçün ona görə maraqlıdır ki, Azərbaycan reallığı həmin sahədə rus ictimai fikri ilə üst-üstə düşmüşdür. Təsadüfi deyil ki, artıq 80 yaşı olan «Azərbaycan», 40 ilə yaxın fəaliyyət göstərən «Ulduz» və s. jurnallarımız ölkədə ictimai rəyin formalaşma prosesində ilk sırada olmuşdur. Rusiyada «Новый мир», «Наш современник» jurnalları haqqında da eyni fikri demək olar. 1982-ci ildə yuxarıda haqqında bəhs etdiyimiz akademik D.Lixaçov öz müsahibələrinin birində «Новый мир» jurnalında «daha çox nonparellə yazılan materialları oxuduğunu»[4] etiraf edirdi. Buradaca qeyd edək ki, «Новый мир» sovet dövrünün ən populyar

[1] V.Q. Belinski. Əsərləri, üç cilddə, III cild, M., 1963, səh.215.
[2] Б.И.Есин. История русской журналистики XIX в. М., 1989, сящ.82.
[3] Д.И.Лихачов. Журнальная публицистика XIX века. «Литературная газета», 20 сентябрь 1994.
[4] «Литературная газета», 9 август 1982.

ədəbi-bədii orqanı kimi fəaliyyət göstərmiş, elə bu gün də göstərməkdədir. Sovet dövründə bu jurnalın səhifələrində publisistikanı nonparellə (kiçik şriftlə) yığmaq cəhdi həmin materialların az oxunmasını təmin etmək tələbindən irəli gəlirdi. Akademik yuxarıdakı sözləri ilə «Новый мир»də daha çox publisistikanı oxuduğuna işarə edirdi.

Sovet dövrü ədəbi-bədii jurnallarında ilk vaxtlarda–onların çox sayda meydana çıxdığı 1930-cu illərdə, ümumiyyətlə publisistikaya az yer verilmişdir. Çünki sovet ideoloji maşını hər şeydən çox publisistikadan ehtiyat edirdi. 1956-cı ildə Sov.İKP-nin XX qurultayında İ.V.Stalinin şəxsiyyətə pərəstiş dövrünün ifşasından sonra jurnal publisistikası xeyli dərəcədə genişləndi. Azərbaycan ədəbi-bədii jurnalları da 1960-1980-ci illərdə publisistikaya xüsusi yer ayırmışdır. Lakin bu publisistika «təşviqat» qatarlarının «sərnişinlərinin» kənd təsərrüfatı, pambıq, üzüm, neft «qəhrəmanları» barədə pafoslu yazılarından ibarət olurdu. «Ədəbi-bədii jurnalın öz siması, öz xarakteri olmalıdır…Jurnalın xarakteri və siması onun istiqaməti ilə müəyyənləşir».[1] V.Q.Belinskinin 130 il əvvəl dediyi bu fikir uzun müddət sovet ədəbi-bədii jurnallarında gerçəkləşə bilmirdi. Yalnız sovet hakimiyyətinin süqutundan sonra bütün postsovet məkanında, o cümlədən Azərbaycan ədəbi-bədii jurnallarında müstəqil publisistika özünü göstərməyə başladı.

1980-ci illərin sonlarından başlayan Azərbaycan milli istiqlal hərəkatı dövründə ədəbi-bədii jurnallarımız, xüsusilə «Azərbaycan» jurnalı çox ciddi problemlərə, tematikaya həsr olunmuş publisist yazılar dərc etmişdir. S.Əliyarlının, B.Vahabzadənin, F.Mehdinin, S.Rüstəmxanlının və başqalarının publisist yazıları bədii əsərlərdən daha çox populyarlıq qazanmağa başladı. S. Əliyarlının «Adımız, tariximiz, taleyimiz» rubrikasında dərc edilən «Milli hərəkatımızın ilkin dönəmləri»[2] elmi-publisist oçerki xalqın öz soykökünə qayıtma prosesinin təzahürü idi.

Bu dövrdə xüsusilə Qarabağ problemi publisistikanın aparıcı mövzularından olmuşdur. «Qarabağ: acılarımızın salnaməsi» kimi bir rubrikanın açılması «Azərbaycan» jurnalının bu mövzunu xüsusi publisistik nəzarətdə saxlayacağını vəd edirdi. Bu rubrika altında B.Vahabzadənin, F.Mehdinin, S.Rüstəmxanlının, N.N.Veysəllinin maraqlı publisistik əsərləri işıq üzü görmüşdür. Vahid Məhərrəmovun «Vəhşiliyin sonu varmı?» publisist yazısı ermənilərin Azərbaycan xalqının başına gətirdiyi faciələri oxucuya çatdırırdı. Qarabağ uğrunda döyüşlərdə iştirak etmiş bir tibb bacısının xatirələri əsasında qələmə alınmış bu publisist əsərdəki «Mərmilər altında cərrahiyyə əməliyyatları», «Ermənilər həkimlik şərəfini də itirmişdilər», «Ürəkləri odlayan xəbər», «Yollar qaçqınlarla dolu idi», «Tabutlarda silah daşınırmış», «Anamın göz yaşları», «Ölümlə üz-üzə» və s. kimi yarımbaşlıqlar əsərin mahiyyətini anlamağa kifayət edir. Erməni xislətinin ifşası ədəbi-bədii jurnal publisistikasında 1990-cı illərdə mühüm rol oynadı. Musa Urudun «Urud»[3] publisistik əsəri bu mövzuya xidmət edir. Görkəmli publisist və ədəbiyyatşünas Teymur Əhmədovun «Er-

---

[1] В.Г.Белинский. Полное собрание сочинений. t.II, M., 1953, səh.15.
[2] «Azərbaycan» jurnalı. 1998, № 9, səh.131-159.
[3] Yenə orada. 1998, № 8

məni xəyanəti»[1] əsəri Andranik Ozanyanın vəhşiliyini ümumiləşdirir. Publisist N.Qəmbərovun «Gözün aydın, Bakı, Xocalı Bakıya gəlir…»[2] əsəri də erməni xislətinin ifşası baxımından maraqlıdır.

Əlbəttə, 1990-cı illərdən başlayan müstəqillik dövrü ədəbi-bədii jurnallara bir sıra digər mövzular da gətirdi. Lakin Qarabağ mövzusu jurnalların mövzu dairəsi sistemində ilkin yerdə dururdu.

Bu dövrün jurnal publisistikası, habelə ədəbi-bədii jurnalların öz «simasının, xarakterinin» formalaşmasında mühüm rol oynadı.

«Azərbaycan» jurnalı başda olmaqla, ədəbi-bədii orqanlarımız respublikada gedən islahatları, bazar münasibətlərinə keçid dövrünün problemləri, milli-mənəvi dəyərlərin dirçəldilməsi, bədii fikrin yeni istiqamətdə formalaşdırılması, ölkənin Qərbə inteqrasiyası, demokratik dəyərlərə yiyələnməyin üsulları və s. onlarca mövzunu publisistikanın əsas predmetinə çevirdi. Beləliklə, ədəbi-bədii jurnallar Azərbaycanın müstəqillik çağında onun ən ciddi problemlərinin bədii-publisistik həlli yolunda mühüm iş görməkdədir.

## ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННЫЕ ЖУРНАЛЫ И АЗЕРБАЙДЖАНСКИЕ РЕАЛИИ

**А.Г.АЗИМОВА**

**АННОТАЦИЯ**

В статье рассмотрены общетеоретические аспекты журнальной публицистики и раскрыт её характер. Исследование проведено на фоне сравнения публицистики литературно-художественных журналов с подобного рода произведениями в постсоветском пространстве, где характер и тематика журнальной публицистики сопоставлены с литературными фактами современного периода. К исследованию привлечена также тематика, связанная с национально-освободительным движением конца 80-г.г. и карабахской проблемой. В статье использованы в основном материалы журналов «Азербайджан» и «Улдуз».

---

[1] «Azərbaycan» jurnalı. 1999, № 8
[2] Yenə orada. 1999, №6.